# Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında

# Azərbaycan Respublikasının Qanunu

## *I fəsil. Ümumi müddəalar*

### *Maddə 1. Ekstradisiya haqqında qanunvericilik*

1.1. Azərbaycan Respublikasının ərazisində yaşayan, yaxud olan *əcnəbi və ya vətəndaşlığı olmayan* şəxsin Azərbaycan Respublikasının hüdudlarından kənarda törətdiyi əməllərə görə xarici dövlət tərəfindən cinayət məsuliyyətinə cəlb edilməsi və ya məhkəmə tərəfindən təyin edilmiş cəzanın icrası üçün verilməsi Azərbaycan Respublikası Konstitusiyası, bu Qanun, Azərbaycan Respublikasının cinayət və cinayət-prosessual qanunvericiliyi, Azərbaycan Respublikasının digər qanunvericilik aktları və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri ilə tənzimlənir.

1.2. Cinayət törətmiş *Azərbaycan Respublikasının ərazisində yaşayan, yaxud olan əcnəbi və ya vətəndaşlığı olmayan* şəxsin (bundan sonra — şəxs) verilməsinə dair Azərbaycan Respublikası ilə sorğu edən xarici dövlət arasında müvafiq müqavilə olmadıqda *və ya müvafiq müqavilə ilə tənzimlənməyən məsələlər üzrə həmin müqaviləyə zidd olmayan hissədə qarşılıqlı yardım prinsipinə riayət olunmaqla* bu Qanunun müddəaları tətbiq edilir.

1.3. Bu Qanunun müddəaları şəxsin beynəlxalq məhkəmə orqanlarına təslim edilməsinə şamil olunmur.

### *Maddə 2. Ekstradisiyanın şərtləri*

2.1. Xarici dövlət tərəfindən verilməsi sorğu edilən şəxs yalnız onun törətdiyi əməl Azərbaycan Respublikasının və sorğu edən dövlətin qanunvericiliyinə uyğun olaraq cinayət sayıldıqda və həmin əməlin törədilməsinə görə azı bir il azadlıqdan məhrumetmə cəzası, yaxud daha ağır cəza növü nəzərdə tutulduqda verilə bilər.

2.2. Törətdiyi cinayətə görə xarici dövlətin məhkəməsi tərəfindən azadlıqdan məhrumetmə cəzasına, yaxud daha ağır cəza növünə məhkum olunmuş şəxs cəzanın icrası üçün verilə bilər. Bu halda azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş müddəti altı aydan az ola bilməz.

2.3. Bir neçə cinayətə görə verilməsi sorğu edilən şəxs yalnız törədilməsinə görə nəzərdə tutulan cəzanın növü və həddi bu Qanunun 2.1–2.2-ci maddələrində cəzanın növü və müddəti ilə

əlaqədar müəyyən edilmiş şərtlərə cavab verən cinayətə və ya cinayətlərə görə verilə bilər. Belə hallarda həmin şəxsə bu Qanunun 4-cü maddəsinin müddəaları şamil edilir.

# *II fəsil. Ekstradisiya ilə bağlı məhdudiyyətlər*

## *Maddə 3. Ekstradisiyadan imtinanın əsasları*

3.1. Şəxsin verilməsindən aşağıdakı hallarda imtina edilir:

3.1.1. barəsində sorğu edilən şəxs onun verilməsi haqqında məsələ həll edildiyi zaman Azərbaycan Respublikasının vətəndaşı olduqda;

3.1.2. verilməsi haqqında sorğu edilən şəxsə Azərbaycan Respublikası ərazisində qanunvericiliklə müəyyən edilmiş qaydada siyasi sığınacaq verildikdə;

3.1.3. verilməsi haqqında sorğu edilən şəxsin törətdiyi və verilməyə əsas olan əməl Azərbaycan Respublikası tərəfindən siyasi xarakterli cinayət sayıldıqda;

3.1.4. verilməyə əsas olan cinayət Azərbaycan Respublikası ərazisində törədildikdə;

3.1.5. şəxsin verilməsinə əsas olan cinayətə görə Azərbaycan Respublikasının ərazisində qanuni qüvvəyə minmiş hökm *və ya cinayət təqibinə xitam verilməsi haqqında qərar olduqda*;

3.1.6. Azərbaycan Respublikasının və ya sorğu edən xarici dövlətin cinayət qanunvericiliyinə əsasən, cinayət məsuliyyətinə cəlbetmə, yaxud ittiham hökmünün icrası müddətləri keçdikdə;

3.1.7. şəxsin verilməsinə əsas olan cinayət sorğu edən xarici dövlətin qanunvericiliyində hərbi xidmət əleyhinə cinayət kimi nəzərdə tutulduqda və hərbi xidmətlə bağlı olmayan başqa cinayətin tərkibini yaratmadıqda;

*3.1.8. cinayət törətmiş şəxslərin verilməsi ilə bağlı sorğu edən xarici dövlət tərəfindən qarşılıqlı yardım prinsipinə riayət olunmadıqda*;

*3.1.9. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə müvafiq olaraq cinayət xüsusi ittiham qaydasında (zərər çəkmiş şəxsin şikayəti əsasında) təqib edildiyi halda.*

3.2. Şəxsin verilməsindən aşağıdakı hallarda imtina edilə bilər:

3.2.1. şəxsin verilməsinə əsas olan cinayətə görə sorğu edən xarici dövlətin qanunvericiliyi ilə ölüm cəzası nəzərdə tutulduqda;

3.2.2. verilməsi nəticəsində sorğu edilən şəxsin sorğu edən dövlətdə işgəncələrə, yaxud qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara, yaxud cəzaya məruz qalacağını güman etməyə kifayət qədər əsaslar olduqda;

3.2.3. verilməsi nəticəsində sorğu edilən şəxsin irqinə, milliyyətinə, dilinə, dininə, vətəndaşlığına, siyasi baxışlarına və ya cinsinə görə təqibə məruz qalmasını *və ya ədalətli məhkəməyə olan hüququnun kobud surətdə pozulmasını* güman etməyə kifayət qədər əsaslar olduqda;

3.2.4. şəxsin verilməsinə əsas olan cinayət sorğu edən xarici dövlətin ərazisindən kənarda törədilmişdirsə və bu cinayətə görə Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən cinayət təqibi nəzərdə tutulmamışdırsa;

3.2.5. şəxsin verilməsinə əsas olan cinayətlə bağlı həmin şəxs Azərbaycan Respublikası ərazisində cinayət məsuliyyətinə cəlb edildikdə;

3.2.6. şəxsin verilməsinin Azərbaycan Respublikasının suverenliyinə, təhlükəsizliyinə və ya başqa mühüm maraqlarına ziyan vuracağını güman etməyə kifayət qədər əsaslar olduqda;

*3.2.7. sorğu edən xarici dövlətin qanunvericiliyinə əsasən şəxsin verilməsinə əsas olan cinayət üzrə dəyişdirilməz ömürlük azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulduqda.*

**Qeyd:**

1. Bu Qanunun 3.1.3-cü maddəsinin tətbiqi zamanı aşağıdakı əməllər siyasi xarakterli cinayət sayılmır:

a) Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 9 dekabr 1948-ci il tarixli «Genosid cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında» Konvensiyası ilə nəzərdə tutulan insanlıq əleyhinə cinayətlər;

b) 1949-cu il tarixli «Döyüşən silahlı qüvvələrdə yaralıların və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında» Cenevrə Konvensiyasının 50-ci maddəsində, 1949-cu il tarixli «Dənizdə silahlı qüvvələr tərkibində yaralıların, xəstələrin və gəmi qəzasına uğrayanların vəziyyətinin yaxşılaşdırılması haqqında» Cenevrə Konvensiyasının 51-ci maddəsində, 1949-cu il tarixli «Hərbi əsirlərlə rəftar haqqında» Cenevrə Konvensiyasının 130-cu maddəsində, 1949-cu il tarixli «Müharibə zamanı mülki əhalinin qorunması haqqında» Cenevrə Konvensiyasının 147-ci maddəsində nəzərdə tutulan cinayətlər;

c) insan həyatı, sağlamlığı, təhlükəsizliyi və ya azadlığı əleyhinə törədilən ağır *və ya xüsusilələ ağır* cinayətlər və ya bu cür cinayət törətməyə cəhd, yaxud bu cür cinayətin törədilməsində və ya onun törədilməsinə cəhddə iştirakçılıq;

ç) Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə cinayət təqibi nəzərdə tutulan əməllər.

2. Bu Qanunun 3.2.1-ci maddəsində nəzərdə tutulmuş hallarda şəxs yalnız o zaman verilə bilər ki, sorğu edən dövlət həmin şəxsin barəsində ölüm hökmü çıxararsa onun icra olunmayacağına təminat versin.

3. Bu Qanunun 3.1.1 və 3.2.1-ci maddələrində nəzərdə tutulmuş hallarda şəxsin verilməsindən imtina edildikdə, sorğu edən dövlətin vəsatətinə uyğun olaraq həmin şəxs Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən cinayət məsuliyyətinə cəlb oluna bilər.

### Maddə 4. Verilən şəxsin cinayət təqibinin hüdudları

4.1. Xarici dövlətin sorğusuna əsasən verilən şəxs yalnız onun verilməsinə əsas olan cinayətin törədilməsinə görə həmin dövlətin qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada təqib edilə bilər.

4.2. Verilən şəxs verilmədən əvvəl törətdiyi və verilməyə əsas olmayan cinayətə görə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının [Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi] razılığı olmadan məsuliyyətə cəlb oluna, yaxud üçüncü dövlətə verilə bilməz.

Verilmə haqqında sorğuda nəzərdə tutulmayan əmələ görə şəxsin cinayət məsuliyyətinə cəlb olunmasına yalnız bu Qanunun 2-ci maddəsinin tələbləri nəzərə alınmaqla razılıq verilə bilər.

4.3. Verilən şəxs cəza çəkdikdən, yaxud qanunvericiliklə nəzərdə tutulmuş əsaslara görə cəza çəkməkdən azad edildikdən qırx beş gün sonra sorğu edən dövlətin ərazisini tərk etmədikdə, yaxud həmin ərazini tərk etdikdən sonra oraya könüllü qayıtdıqda, onun cinayət məsuliyyətinə cəlb edilməsinə, yaxud üçüncü dövlətə verilməsinə Azərbaycan Respublikasının razılığı tələb olunmur. Verilən şəxsin üzürlü səbəblərdən sorğu edən dövlətin ərazisini tərk edə bilmədiyi vaxt göstərilən müddətə daxil edilmir.

## III fəsil. Ekstradisiyanın prosedur qaydaları

### Maddə 5. Şəxsin verilməsi haqqında sorğu

5.1. Xarici dövlətin səlahiyyətli orqanı tərəfindən Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına [Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi] yazılı şəkildə təqdim olunan şəxsin verilməsi haqqında sorğuda aşağıdakılar göstərilməlidir:

5.1.1. sorğu edən xarici dövlətin səlahiyyətli orqanının adı;

5.1.2. sorğu edilən şəxsin adı, soyadı, atasının adı, doğulduğu tarix, vətəndaşlığı, daimi yaşayış yeri və ya olduğu yer, zahiri görkəminin təsviri, şəxsiyyətinin və vətəndaşlığının müəyyən edilməsi üçün zəruri olan digər məlumatlar;

5.1.3. verilməyə əsas olan cinayətin təsviri, törədildiyi vaxtı, yeri, digər faktiki halları, müvafiq qanuna istinad etməklə törədilmiş əməlin hüquqi tövsifi;

5.1.4. cinayət nəticəsində vurulmuş maddi ziyanın həcmi və başqa zərərli nəticələri;

5.1.5. mümkün olduqda sorğu edilən şəxsin fotoşəkli və əl barmaqlarının izləri.

5.2. Şəxsin verilməsi haqqında sorğuya onun məqsədləri nəzərə alınmaqla aşağıdakı sənədlər əlavə edilir:

5.2.1. cinayətin törədilməsində ittiham olunan şəxs barəsində məhkəmə və ya başqa səlahiyyətli orqan tərəfindən çıxarılmış həbs qərarı və ya belə qərarın təsdiqlənmiş surəti;

5.2.2. verilməsi sorğu edilən şəxs məhkum olunmuşdursa, qanuni qüvvəyə minmiş hökm və ya onun təsdiqlənmiş surəti, verilməyə əsas olan cinayətə görə təyin edilən cəzanın çəkilməmiş hissəsi haqqında sənəd;

5.2.3. əməlin cinayət olmasını müəyyən edən, habelə cinayət məsuliyyətinə cəlbetmə və ya ittiham hökmünün icrası müddətlərinə aid olan sorğu edən dövlətin qanunlarının müvafiq maddələrinin tam mətni.

5.3. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı [Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi] sorğu daxil olduğu vaxtdan ən geci yeddi gün müddətində təqdim olunmuş sənədləri yoxlayır və onların bu Qanunun 5.1 və 5.2-ci maddələrində nəzərdə tutulmuş tələblərə cavab verməməsini müəyyən etdikdə xarici dövlətin səlahiyyətli orqanına müvafiq sənədlərin təqdim olunması haqqında müraciət edir. Bu müraciətə bir aydan gec olmayan müddətdə cavab alınmalıdır. Zəruri hallarda xarici dövlətin vəsatətinə əsasən bu müddət əlavə bir ay da uzadıla bilər.

## *Maddə 6. Verilməsi üçün şəxsin həbsə alınması*

6.1. Şəxsin verilməsi haqqında sorğuda bu Qanunun 5.1 və 5.2-ci maddələrində nəzərdə tutulmuş tələblərə əməl olunmuşdursa, Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı [Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi] Azərbaycan *Respublikasının Cinayət-Prosessual Məcəlləsinə* uyğun olaraq şəxsin axtarışı və həbs edilməsi üçün lazımi tədbirlər görür.

6.2. Sorğu edilən şəxs həbs edildikdən sonra onun verilməsi məsələsinə baxılması üçün bütün sənədlər Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı [Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi] tərəfindən *onun yerləşdiyi ərazi üzrə ağır cinayətlər məhkəməsinə* təqdim edilir.

6.3. Şəxsin həbsə alınması barəsində sorğu edən dövlətə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı [Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi] tərəfindən təxirəsalınmadan məlumat verilir.

*6.4. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmədikdə, şəxsin verilməsi üçün həbsdə saxlanılma müddəti və həbsdə saxlanılma müddətinin uzadıldığı müddət Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilir.*

## *Maddə 7. Verilmə haqqında sorğu alınanadək şəxsin tutulması və həbsə alınması*

7.1. Təxirəsalınmaz hallarda xarici dövlətin vəsatətinə əsasən verilmə haqqında sorğu alınanadək, şəxsin axtarışı*, tutulması* və həbs edilməsi üçün Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları [öz səlahiyyətləri daxilində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Daxili İşlər Nazirliyi] tərəfindən Azərbaycan Respublikasının *Cinayət-Prosessual Məcəlləsi* ilə nəzərdə tutulmuş qaydada zəruri tədbirlər görülür. Vəsatətdə bu

Qanunun 5.2.1 və 5.2.2-ci maddələrində nəzərdə tutulan sənədlərin mövcud olması və şəxsin verilməsi haqqında sorğunun təxirə salınmadan təqdim ediləcəyi göstərilməlidir. Vəsatətdə həmçinin şəxsin verilməsinə əsas olan cinayət, onun törədilməsi vaxtı, yeri, verilməsi sorğu ediləcək şəxsin vətəndaşlığı və şəxsiyyəti haqqında məlumatlar əks etdirilməlidir.

7.2. Sorğu alınanadək şəxsin *tutulması,* həbsə alınması haqqında vəsatət teleqraf, poçt və ya yazılı şəkildə, təsdiq edilməsi mümkün olan başqa rabitə vasitələri, yaxud Kriminal polisin beynəlxalq təşkilatı (İnterpol) vasitəsi ilə təqdim edilə bilər.

7.3. Bu Qanunun 7.1-ci maddəsinə uyğun olaraq şəxsin *tutulması, həbsə alınması və ya bundan* imtinanın səbəbləri haqqında sorğu edən dövlətə təxirəsalınmadan məlumat verilir.

7.4. Sorğu edən xarici dövlət şəxsin həbsə alınması haqqında rəsmi məlumat aldığı vaxtdan ən geci 18 gün müddətində verilmə haqqında sorğu və ya bu Qanunun 5-ci maddəsində göstərilən sənədləri təqdim etmədikdə, bu Qanunun 7.1-ci maddəsində göstərilən qaydada həbs edilmiş şəxs azad olunur. Üzürlü səbəblər olduqda vəsatət verən xarici dövlətin xahişinə əsasən bu maddədə göstərilən müddət şəxsin həbsə alınması haqqında rəsmi məlumat alındığı vaxtdan 30 gündən artıq olmamaq şərti ilə uzadıla bilər.

7.5. Şəxsin azad olunması sorğu alındıqdan sonra onun yenidən həbs edilməsini istisna etmir.

## *Maddə 8. Şəxsin verilməsi haqqında sorğuya baxılması*

8.1. *Ağır cinayətlər məhkəməsi* xarici dövlətin sorğusu əsasında şəxsin verilməsi məsələsinə baxır və bu barədə müvafiq əsaslandırılmış qərar qəbul edir.

8.2. *Ağır cinayətlər məhkəməsinin* şəxsin verilməsi haqqında qərarından Azərbaycan Respublikasının *Cinayət-Prosessual Məcəlləsi* ilə müəyyən edilmiş qaydada şikayət və ya protest verilə bilər.

8.3. Şəxsin verilməsindən imtina haqqında sorğu edən xarici dövlətin səlahiyyətli orqanına Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı [Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi] tərəfindən məlumat verilir.

## *Maddə 9. Verilməsi sorğu edilən şəxsin hüquqları*

9.1. Barəsində bu Qanunla nəzərdə tutulmuş verilmə tədbirləri həyata keçirilən şəxs təxirəsalınmadan vətəndaşı olduğu dövlətin rəsmi nümayəndəsi və ya bu qismdə çıxış edən şəxslə əlaqə yaratmaq və onunla görüşmək hüququna malikdir.

9.2. Barəsində bu Qanunla nəzərdə tutulmuş verilmə tədbirləri həyata keçirilən şəxsin müdafiə və digər hüquqları Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq təmin edilir.

## *Maddə 10. Verilmənin təxirə salınması*

10.1. Xarici dövlət tərəfindən verilməsi sorğu edilən şəxs Azərbaycan Respublikası ərazisində cinayət məsuliyyətinə cəlb olunmuşdursa, yaxud cəza çəkirsə, onun verilməsi cinayət təqibi başa çatana, yaxud təyin edilmiş cəza çəkilənədək təxirə salına bilər.

10.2. Verilmənin təxirə salınmasının səbəbləri haqqında Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı [Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi] tərəfindən xarici dövlətin səlahiyyətli orqanına məlumat verilir.

## Maddə 11. Müvəqqəti verilmə

11.1. Bu Qanunun 10.1-ci maddəsində göstərilən şəxs xarici dövlətin ərazisində təxirəsalınmaz prosessual hərəkətlərin yerinə yetirilməsi üçün müvəqqəti olaraq verilə bilər. Müvəqqəti verilmə şəxsin verilməsi haqqında bu Qanunla müəyyən olunmuş qaydalara uyğun olaraq həyata keçirilir.

11.2. Cinayət işi üzrə prosessual hərəkətlərin icrası başa çatdıqdan sonra, lakin müvəqqəti verildiyi vaxtdan üç aydan gec olmayaraq verilən şəxs Azərbaycan Respublikasına qaytarılmalıdır.

11.3. Xarici dövlətin səlahiyyətli orqanı bu Qanunun 11-ci maddəsinin tələblərinə əsasən şəxsin qəbul edilməsi haqqında yazılı şəkildə razılığını bildirməlidir. Şəxsin müvəqqəti verilməsi yalnız belə razılıq alındıqdan sonra həyata keçirilə bilər.

## Maddə 12. Bir neçə xarici dövlətin sorğusu olduqda şəxsin verilməsi qaydası

12.1. Bir neçə xarici dövlət eyni şəxsin verilməsi barədə sorğu etdikdə, bu Qanunun müddəaları nəzərə alınmaqla, sorğu edilən şəxs bir qayda olaraq ərazisində cinayətin törədildiyi xarici dövlətə verilir.

12.2. Bir neçə xarici dövlətin ərazisində verilməyə əsas olan cinayət və ya cinayətlər bir neçə dövlətin ərazisində törədildikdə və bu dövlətlərin hər biri şəxsin verilməsi haqqında sorğu etdikdə, şəxsin verilməsi məsələsi həll edilərkən törədilmiş cinayətlərin ağırlığı, işin digər faktiki halları, cinayət törətmiş şəxsin vətəndaşlığı və sorğunun təqdim edilməsi tarixi nəzərə alınır.

## Maddə 13. Şəxsin verilməsi qaydası

13.1. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı [Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi] şəxsin verilməsi vaxtı və yeri haqqında xarici dövlətin müvafiq səlahiyyətli orqanına məlumat verir. Müəyyən olunmuş vaxtdan ən geci on beş gün müddətində xarici dövlət tərəfindən qəbul edilməyən sorğu edilən şəxs azad olunur.

13.2. Sorğu edən dövlətin vəsatətinə əsasən şəxsin qəbul edilməsi müddəti Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı [Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi] tərəfindən bu Qanunun 13.1-ci maddəsində müəyyən olunmuş vaxtdan etibarən otuz gündən artıq olmamaq şərti ilə uzadıla bilər.

## Maddə 14. Təkrar verilmə

Verilmiş şəxs cinayət məsuliyyətindən, yaxud cəza çəkməkdən yayındıqda və yenidən Azərbaycan Respublikasının ərazisinə qayıtdıqda xarici dövlətin vəsatətinə əsasən həmin dövlətə təkrar verilə bilər. Belə halda bu Qanunun 5-ci maddəsində göstərilən sənədlər tələb olunmur.

# IV fəsil — Yekun müddəaları

## Maddə 15. Verilmiş şəxsin cinayət təqibinin nəticələri barədə məlumat

15.1. Verilmiş şəxsin cinayət təqibinin nəticələri haqqında xarici dövlətin səlahiyyətli orqanı Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına [Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi] məlumat verməlidir.

15.2. Bu Qanunun 15.1-ci maddəsində nəzərdə tutulmuş qayda haqqında Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı [Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi] tərəfindən xarici dövlətin səlahiyyətli orqanına məlumat verilir.

## Maddə 16. Tranzit daşıma

16.1. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı [Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi] xarici dövlətin səlahiyyətli orqanının sorğusuna əsasən üçüncü dövlət tərəfindən verilən şəxslərin Azərbaycan Respublikasının ərazisindən tranzit daşınmasına icazə verilə bilər.

16.2. Bu Qanunun 3-cü maddəsində nəzərdə tutulmuş hallarda tranzit daşımaya icazədən imtina edilə bilər. Bu cür imtinaya əsas olan halların müəyyənləşdirilməsi üçün Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı [Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi] tranzit daşımaya icazə istəyən xarici dövlətdən müvafiq məlumatlar tələb edə bilər.

16.3. Tranzit daşıma haqqında sorğu yazılı qaydada təqdim edilir.

16.4. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı [Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi] bu Qanunun müddəaları nəzərə alınmaqla, tranzit daşımanın həyata keçirilməsinə icazə verir və bu barədə xarici dövlətin səlahiyyətli orqanlarını məlumatlandırır.

16.5. Tranzit daşıma üçün hava nəqliyyatı istifadə edildikdə aşağıdakı qaydalara riayət edilməlidir:

16.5.1. hava gəmisinin Azərbaycan Respublikasının hava limanında enməsi nəzərdə tutulmadıqda tranzit daşımanı həyata keçirən dövlət bu barədə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına [Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi] məlumat verir və bu Qanunun 5.2.1 və 5.2.2-ci maddələrində göstərilən sənədlərin mövcud olmasını təsdiq edir;

16.5.2. hava gəmisi Azərbaycan Respublikasının hava limanında planlaşdırılmayan qaydada endikdə daşınan şəxs xarici dövlətin müvafiq səlahiyyətli orqanının vəsatətinə əsasən tranzit daşıma haqqında rəsmi sorğu təqdim edilənədək 48 saatadək müddətdə həbsdə saxlanıla bilər;

16.5.3. hava gəmisinin Azərbaycan Respublikasının hava limanında enməsi nəzərdə tutulduqda tranzit daşımasını həyata keçirən dövlət müvafiq sorğu təqdim etməlidir.

## Maddə 17. Şəxsin verilməsi və ya tranzit daşıma ilə bağlı xərclər

Şəxsin verilməsi və ya tranzit daşıması ilə bağlı bütün xərclər sorğu edən xarici dövlət tərəfindən ödənilir.

## Maddə 18. Əlaqələrin qaydası

18.1. Şəxsin verilməsi ilə bağlı bütün əlaqələr Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının [Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi] vasitəsilə həyata keçirilir.

18.2. Şəxsin verilməsi ilə bağlı təqdim olunan sənədlər Azərbaycan dilinə, yaxud Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının [Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi] razılığı əsasında Birləşmiş Millətlər Təşkilatının rəsmi dillərindən birinə tərcümə edilir.

## Maddə 19. Qanunun qüvvəyə minməsi

Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***Heydər ƏLİYEV***

***Bakı şəhəri, 15 may 2001-ci il***

***№ 132-IIQ.***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (19 iyun 2001-ci il, № 136).***

***Azərbaycan Respublikasının Qanunvericilik Toplusunda dərc edilmişdir (30 iyun 2001-ci il, № 6, maddə 386).***

***2 iyul 2002-ci il tarixli, 360-IIQD nömrəli; 10 iyun 2011-ci il tarixli, 148-IVQD nömrəli; 20 oktyabr 2015-ci il tarixli, 1397-IVQD nömrəli; 29 aprel 2016-cı il tarixli Qanunlara əsasən dəyişikliklər və əlavələrlə («LegalActs»).***

*© LegalActs*

---

Azərbaycan Respublikası Prezidentinin Fərmanı -- 11.06.2001, № 499